# Hikmət və əxlaqı şeirlərində əks etdirən şair



■ KAMAL CAMALOV
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikasının əməkdar müəllimi

**Ulu Tanrı tərəfindən şairlik iqtidarı o kəslərə verilib ki, həyatını şam kimi cəmiyyətin inkişafı, millətin və xalqının gələcəyi naminə zərrə-zərrə əritsin. Belə insanlar zəhmətin müqabilində yorulmayıb, usanmayıb, əksinə, ondan qürur duyub, zövq alıblar.**

Əbülfəz Ülvi də belələrindəndir. O, ömrünü daha mənalı və məzmunlu etmək üçün şairlik yolunu seçib. Xaqani Şirvani yazır ki, hər bir müəllim şair olmaya bilər, ancaq hər bir şair tərbiyəçi olmağı da bacarmalıdır. Ülvi müəllim qısa müəllimlik fəaliyyəti anından özünü mənəvi cəhətdən bu yola, onun çətinliklərinə faiq olmağa kökləyib. Əbülfəz Ülvi şeirlərində təsvir ilə kifayətlənmir, onun fövqündə dayanaraq ümumiləşdirmələr aparır, analitik şərhlər verir. Orijinal yanaşma tərzi ilə sələflərindən və müasirlərindən fərqlənir.

Şeir yaradıcılığının çoxşaxəliliyi, zənginliyi, əhatəliliyi, şairin yaradıcılıq üslubu, ilk növbədə, dili, ifadə tərzi ilə müşayiət olunur. Şairin yanaşma tərzi, dili və üslub zənginliyi onun yazdığı şeirlərə parlaqlıq gətirir, şeirlərini oxucunun diqqətində maraqlı bir mənbəyə çevirir. Bu baxımdan Əbülfəz Ülvinin yaradıcılığı özünəməxsus cəhətləri ilə fərqlənir. Onun şeir manerası, oxunaqlı dili, sadə və aydın ifadə tərzi şeir yaradıcılığının əsas xarakterik cəhəti kimi diqqəti cəlb edir. Hər kəs Əbülfəz Ülvini daim yaradıcılıq həvəsi ilə yaşayan, fəaliyyət göstərən bir şair, yazıçı kimi tanıyır. Yaradıcılıq eşqilə coşub-çağlayan, başqalarına diqqət və qayğı ilə münasibət bəsləyən bir insan kimi qiymətləndirir, onun xeyirxahlığından söhbət açır.

Respublikamız müstəqillik qazandıqdan sonra gənclərin milli ruhda tərbiyə olunmasına təlim-tərbiyə ocaqları ilə yanaşı, şairlər də xüsusi qayğı göstərir. Qloballaşmanın sürətlə getdiyi indiki zamanda milli dəyərlərin qorunub-saxlanması mühüm əhəmiyyət kəsb edir. Əlbəttə, milli dəyərlərin qiymətləndirilərək böyüməkdə olan nəslə çatdırılması vəzifəsi, qeyd etdiyimiz kimi, şairlərində üzərinə düşür. Əxlaq tərbiyəsi şəxsiyyət tərbiyəsinin məzmununun ən zəngin hissəsidir. Şəxsiyyətin necəliyi öncə bununla qiymətləndirilir. Çünki əxlaqi kamillik insanın özözünü başa düşdüyü, tanıdığı zaman meydana çıxır. Əxlaq tərbiyəsinin məzmununa daxil edilən əsas keyfiyyətlər bunlardır: xeyirxahlıq, rəhmdillik, səxavətlik, qənaətçillik, işgüzarlıq, zəhmət sevərlik, böyük-kiçik yerini bilmək, təvazökarlıq, düzlük, saflıq, əqidə bütövlüyü, yaxşılıq, söz və əməl birliyinə riayət etmək, vədə xilaf çıxmamaq, şərəf və ləyaqəti qorumaq, yoldaşlıq və dostluqda sədaqətli olmaq, təmkinlilik, səbirlilik, sülhə-razılığa meyllilik, kinli olmamaq, nəfsi toxluq, halallıq və s. Təbii ki, bunları da biz şəxsiyyətin formalaşmasında irsiyyətə bağlayırıq. Əbülfəz Ülvi də irsiyyəti əsas götürərək "Deyirlər" şeirində yazır:

Yaxşılar qəlbimin parası kimi,
Aramız gözlə qaş arası kimi,
Nəsilin nəsilə mirası kimi,
Əxlaq da bağlıdır soyla deyirlər.

Pedaqogika tarixində ləyaqət anlayışına dəyişik mənalar verilmişdir. Müdriklik, igidlik, düzgünlük və s. ləyaqət anlayışına nümunədir. Qısaca: əxlaqi baxımdan hər zaman və davamlı olaraq yaxşı olma meyli, yaxşı və doğru hərəkətlərə uyğun olma vəziyyətidir. Böyük maneələri aşmaq bahasına, əxlaqi yaxşılığın təmin edilməsi, yaxşılıq uğrunda hərəkət etmə gücüdür. Ümumiyyətlə əxlaq, hikmət, fəzilət sözləriylə birlikdə, ya da bunların yerinə istifadə edilməkdədir. Ləyaqət hər kəsin dəyəridir, insanlıq sifətidir. Ləyaqətini itirən adam həm dəyərini, həm də insanlıq sifətini itirmiş olur. Dünya nemətləri üçün başqalarının qarşısında əyilməmək, öz ləyaqətini saxlamaq Əbülfəz Ülvinin gəncliyə ən böyük nəsihəti olmuşdur:

*Görəsən qəflətdən niyə ayılmır,*
*Fikri, düşüncəsi talan adamlar.*
*Dəyərdim, bəlkə də adam sayılmır,*
*Hər adam donunda olan adamlar.*

Bu şeirdə Əbülfəz müəllim, ləyaqəti ilk dəfə "ruhun nizamı" olaraq tərif edir. Yalnız ruhun deyil, özündə bir ərdəm olduğundan söz edilə biləcək hər şeyin ərdəmi nizamından gəlir. Ləyaqət, insanların məqsədinə uyğun olaraq təyin olunmuşdur. Məsələn, insana xas fəziləti təsvir etmək istəyən adam, insanın yaranma məqsədini, insan üçün yaxşı olanın nə olduğunu axtarmalıdır. Ləyaqət yaxşılığın, yaxşılıq isə insanın və cəmiyyətin ən yüksək məqsədi olan xoşbəxtliyin reallaşmasını təmin edəcək. Əbülfəz Ülviyə görə ləyaqətli insan olmaq üçün yalnız ruhun təşkil edilmiş olması deyil, insanın dövlət içində doğru işlə məşğul olması da lazımdır.



Elə əməllər vardır ki, insan öz ağlı ilə onların yaxşı və ya pis olduğuna qərar verə bilir. Belə əməllərdən biri də Ulu Tanrının mərhəmətini, hikmətini və ədalətini özündə əks etdirən böyüklərə hörmət mövzusudur. Əslində bu hər bir insanın daxilindən gələn və bəşəriyyət yaranan gündən cəmiyyət arasında mövcud olan yüksək əxlaqi dəyər nümunəsidir. Ağlı, şüuru, zəkası yerində olan hər bir kəs öz ağlı ilə bu prinsipə riayətin zəruriliyini dərk edir. Onun vasitəsi ilə yer üzündə fitnə fəsadın qarşısı alınır.

İnsanın hələ körpə vaxtlarından qayğısını çəkən valideynləri onun ilk böyükləri sayılır. Daha sonra o, ətrafında olan yaşca ondan böyük adamlara böyük gözü ilə baxmağa başlayır. Artıq həddi-buluğa çatdıqda insanın bu adamlardan bəzilərinə, hətta onlar dünyadan köçsələr belə hörməti daha da artır. O, fəxrlə gəzdiyi vətənindəki bütün nazne-mətlər haqqında dərindən fikirləşdikdə başa düşür ki, buna səbəb onun böyükləri olmuşdur. Məhz bu hiss onda Ulu Tanrıya şükür etmək, Ondan razı qalmaq, böyüyə, ağsaqqala hörmət etmək, kiçiklərə mərhəmət göstərmək, milli dəyərləri, təbii sərvətləri qorumaq, torpağını düşmənin hər cür fitnə fəsadından və xəyanətindən müdafiə etmək və saira saydıqca qurtarmayan tərifəlayiq keyfiyyətlər oyadır.

Hamımız, böyüklərlə birlikdə yaşayırıq, onlara qarşı da müəyyən məsuliyyətimiz var. Deyirlər: "Qoca olmayan yerdə xeyir-bərəkət də olmaz". Qocalar da uşaq kimi qayğıya möhtacdırlar. Yaşları artdıqca adımları yavaşıyır, əlləri əsir, saçları tökülür, ən zəruri ehtiyaclarını belə, təkbaşına ödəyə bilməyəcəkləri bir səviyyəyə gəlib çatırlar. Məhz bu məqamda onların qayğıya ehtiyacları var. Təəssüflər olsun ki, qayğıya ehtiyac duyduqları bu məqamda ata-analarını qocalar evinə tərk edənlər də olur. "Cavanlığımı bu qocalara xidmət etməklə keçirə bilmərəm", - deyə özlərinə bəraət qazandırmağa çalışırlar. Belə övladların qurduqları ailədə necə bərəkət ola bilər?"Qocalara hörmət elə, sən də qocalacaqsan". Heç kim qocalıqdan sığortalanmayıb. Sabah biz də qocalacağıq. Bu günümüzü elə yaşayaq ki, sabah bizim də kiçiklərdən hörmət ummağa üzümüz olsun. Bu mənada Əbülfəz Ülvinin beş bənddən ibarət olan "Ağsaqqala" adlı şeiri təqdirəlayiqdir:

*Vəfa göstərərsən, vəfa görərsən,*
*Zülmətin gətirməz dan ağsaqqala.*
*Dərdinə min dəfə şəfa görərsən,*
*Bir yol söyləməklə can ağsaqqala.*

Əbülfəz Ülvinin əxlaq kodeksi daşıyan bu şeirindən biz oxucular belə nəticə çıxarırıq ki,yaşlılara hörmət edək,onlara dəstək olaq,ayrı-seçkilik salmayaq. Çünki qeyd etdiyimiz kimi, biz indiki cə-miyyətin gənc nəsliyiksə bir müddət sonra yaşlı nəsil olaraq onların yerini biz tutacağıq. Özümüz heç bir zaman əməl etmədiyimiz bir şeyi öz övladlarımıza necə nəsihət,tərbiyə edəcəyik? Bunları yaxşı-yaxşı fikirləşək.

Hamımızın yaxşı bildiyi kimi, uşaqlar üçün yazılan bədii və elmi-kütləvi əsərlər məcmusu uşaq ədəbiyyatı adlanır. Bədii ədəbiyyatın üzvi tərkib hissəsi olan uşaq ədəbiyyatında xalqların və uşaqların həyatına dair onların yaş xüsusiyyətlərinə, qavrama qabiliyyətlərinə uyğun janr, forma və üslubda müxtəlif problemlər qaldırılır, gənc nəsildə yüksək əxlaqi keyfiyyətlər, vətənpərvərlik, sədaqət, dostluq, doğruluq, əməksevərlik, insanpərvərlik və humanizm tərbiyə edilir. Fikrimizcə, Əbülfəz Ülvinin uşaq şeirlərini məzmun-mündəricə baxımından iki qismə ayırmaq olar: birinci qisim şeirlərində bu sahənin klassikləri kimi, Ə. Ülvi də uşaqların ətraf aləm haqqında tanışlığına, bilik və təsəvvürlərinin genişləndirilməsinə çalışır; ikinci qisim şeirlərində isə daha çox özünün pedaqoji baxışlarını, tərbiyə haqqında fikirlərini ön plana çəkir. Böyüklər hər bir uşaqla emosional münasibət qurmağa səy göstərməlidir. Uşaqların başını tumarlamaq, qucaqla-maq, könlünü ələ almaq tərbiyəçiyə müsbət münasibət yaradır. Kiçik uşaqlar böyüklərin nə-vazişinə olan tələbatı müxtəlif cür ifadə edə bilirlər. Böyüklər uşağın təşəbbüsünə, təşəbbüs gös-tərmək cəhdlərinə həmişə cavab verməlidirlər. Uşaq adətən özünü rahat hiss etmədikdə buna ehtiyac duyur. Uşağın kədərlənməsinin səbəbləri müxtəlif ola bilər: fiziki nasazlıq, ailədə münaqişə, yaşıdlarından inciməsi, nəyisə bacarmaması, paltarına və ya donuna ləkə yaxılması və s. Bu zaman böyüyün vəzifəsi uşağın keçirdiyi hissləri başa düşmək, ona kömək etmək və uşağı nəsihətamiz şəkildə vəziyyətdən çıxarmaqdır. Bu mənada Əbülfəz Ülvinin "Məktəbli qız" adlı şeiri maraq doğurur. Burada Əbülfəz Ülvi uşaqları yoran, darıxdıran nəsihətçilikdən uzaqdır. Bəzən, çətin, uzun, ağır tələffüz olunan sözlərlə dolu əsərlərin ideyası, məzmunu balaca oxucuya çatmır və ona lazımi tərbiyəvi təsir göstərmir. Əbülfəz Ülvinin uşaq şeirlərinin əksəriyyəti dilinin sadəliyi, oynaqlığı, axıcılığı və bədiiliyi ilə fərqlənir. "Məktəbli qız" şeirində oxuyuruq:

*Hönkürtü eşidib ayaq saxladım,*
*Gördüm bir məktəbli qızdır ağlayan.*
*Gəlib yaxınına dedim: - övladım,*
*Nədir ürəyini belə dağlayan?*

*- Baxın paltarıma, - dedi: - baxın bir,*
*Bu gün ləkə yaxıb sinif yoldaşım,*
*Bizim ailə də ləkəni sevmir*
*Nə anam, nə atam, nə də qardaşım.*

*Dedim: - duymamısan mənanı bəlkə,*
*Axıtma gözünün büllur çeşməsin.*
*Yuyulub gedəcək paltardan ləkə,*
*Qoru, qoy adına ləkə düşməsin.*

Əlbəttə, müəllifin nəsihətamiz fikirlərinin hamısından nümunə vermək yuxarıda qeyd etdiyimiz kimi, imkan xaricindədir. Verilən nümunələrdən başqa, "Dostluq və vəfanın şərtləri", "Comərdlik, kişilik və insanlıq haqqında", "Övladı natəmizlərin şərindən qorumaq haqqında", "Düz-əməlli peşə sahibləri haqqında", "Elm öyrənmək və alimlərin şərəfi haqqında" və s. kimi oxucuların mənəvi keyfiyyətinin zənginləşməsinə müsbət təsir göstərən şeirlər çoxdur. Bunlarla yanaşı, böyüməkdə olan gəncləri pis əxlaqi sifətlərdən çəkindirən şeirlər də var. Belə nəsihətlərdən təlim materialı kimi istifadə etmək gənclərin tərbiyəsi üçün olduqca faydalıdır.

"Ağıllılar yaşlananda da öz gənclik ruhunu saxlayırlar". Məşhur fransız müğənnisi Moris Şevalye səksən yaşı tamam olanda "Necə yaşayırsınız?" sualına belə cavab vermişdir: "Əla, əlalxüsus da düşünəndə, başqa cür necə ola bilər?" İnanırıq ki, ağır oturub xoş rəftar olduğundan, xeyirxah əməllərə adət etdiyindən elin sevgisi ilə şöhrət tapan dəyərli insan, gözəl şair Əbülfəz Ülviyə insanlara, eləcə də şeiriyyət aləminə bəxş etdiyi təmənnasız "inci tək sözlər"in əvəzini Ulu Tanrı daim verəcəkdir. Əslində, Ulu Yaradandan arzumuz, təmənnamız belədir. . .